Hakimlərin Seçki Komitəsi

## HAKİM VƏZİFƏSİNƏ NAMİZƏDİN

# YADDAŞ KİTABÇASI

BAKI-2026

**Hörmətli namizəd!**

Hakimlərin Seçki Komitəsi hakim vəzifəsində işləmək istəyinizi təşviq edir və Sizə uğurlar arzulayır!

Bizim məqsədimiz Sizə imtahanlarda hüquqi biliyinizi nümayiş etdirmək üçün maksimum əlverişli şərait yaratmaq və obyektivliyi təmin etməkdir.

Siz imtahanda uğur qazanmaq üçün yüksək bilik nümayiş etdirməklə yanaşı yaddaş kitabçasında göstərilənləri mütləq bilməli və imtahanın keçirilməsi qaydalarına əməl etməlisiniz.

***Məhkəmə-Hüquq Şurasının***
***04 avqust 2025-ci il tarixli qərarı***
***ilə təsdiq edilmişdir***

# VAKANT HAKİM VƏZİFƏLƏRİNƏ NAMİZƏDLƏRİN SEÇİLMƏSİ

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun 93-3-cü və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununun 12.0.1-ci maddələrinə uyğun olaraq hazırlanmışdır və hakim olmayan namizədlərin (bundan sonra - namizədlər) vakant hakim vəzifələrinə seçilməsi prosedurlarını müəyyən edir.

**1.2.** Vakant hakim vəzifəsinə namizədlərin seçilməsi namizədlərin bilik səviyyəsini, peşə hazırlığını, ümumi dünyagörüşünü, məntiqi nəticələr çıxarmaq qabiliyyətini, hakim vəzifəsinə yararlı və layiqli olmasını müəyyən etmək məqsədi ilə şəffaf surətdə test imtahanı, yazılı imtahan və müsahibə əsasında Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil edilir.

**1.3.** İmtahanların nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Hakimlərin Seçki Komitəsi bu işə formalaşdırdığı ad hoc komissiyanı cəlb edə bilər. İmtahan zamanı ad hoc komissiyanın üzvləri Hakimlərin Seçki Komitəsi üzvünün bütün hüquq və vəzifələrinə malik olurlar.

**1.4.** Namizədlə yaxın qohumluq və ya şəxsi münasibətdə olan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda Hakimlərin Seçki Komitəsinin üzvü həmin namizədlə aparılan imtahanda və müsahibədə iştirak etmir. Bu əsaslar olduqda namizəd imtahan başlanmazdan əvvəl Komitə üzvlərinin hər hansı birinə etiraz edə bilər. Etiraza Hakimlərin Seçki Komitəsinin iclasında baxılır və müvafiq qərar qəbul olunur.

## 2. Sənədlərin qəbulu

**2.1.** Vakant ştat vahidləri olduqda Hakimlərin Seçki Komitəsi tərəfindən hakim vəzifələrinə namizədlərin seçilməsi ilə əlaqədar mediada və Məhkəmə-Hüquq Şurasının rəsmi internet səhifəsində elan verilir.

**2.2.** Elanda vakant hakim vəzifələrini tutmaq istəyən şəxslərdən ərizələrin qəbulunun başlanma tarixi və son müddəti, bu şəxslər tərəfindən təqdim edilməli olan sənədlərin siyahısı, imtahan suallarının annotasiyası (imtahan suallarının əhatə etdiyi sahələr barədə məlumat), onların tərtibində istifadə edilmiş normativ-hüquqi aktların siyahısı və digər zəruri məlumatlar göstərilir.

**2.3.** Vakant hakim vəzifələrini tutmaq istəyən, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin birinci hissəsinin və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-cü maddəsinin ikinci hissəsinin və 93-3-cü maddəsinin beşinci hissəsinin tələblərinə cavab verən hüquqşünaslar Hakimlərin Seçki Komitəsinə aşağıdakı sənədləri təqdim edirlər:

**2.3.1.** Hakimlərin Seçki Komitəsinə ərizə;

**2.3.2.** şəxsiyyət vəsiqəsinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən əldə edilmiş surəti;

**2.3.3.** kadrlar uçotunun şəxsi vərəqəsi;

**2.3.4.** tərcümeyi-hal;

**2.3.5.** ali təhsil haqqında sənədin (diplomun) notariat qaydasında təsdiq edilmiş surəti;

**2.3.6.** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının təsdiq edilmiş (notariat qaydasında və yaxud kadr xidməti tərəfindən) surəti;

**2.3.7.** yaşadığı ünvan üzrə sağlamlıq barədə, habelə ruhi əsəb xəstəlikləri və narkoloji dispanserlərində qeydiyyatda olub-olmaması barədə arayışlar;

**2.3.8.** ağ fonda 4x6 ölçüdə 4 ədəd fotoşəkil.

**2.4.** Ərizələrin qəbulu müddəti başa çatdıqdan sonra təqdim olunan sənədlər (göstərilən müddət üçün poçtla göndərilən sənədlər istisna olmaqla) qəbul edilmir.

**2.5.** Sənədlərin qəbulu Məhkəmə-Hüquq Şurasının Aparatının Hakimlərin Seçki Komitəsinin fəaliyyətini təmin edən müvafiq struktur bölməsi tərəfindən aparılır. Sənədlərin qəbulu elektron qaydada da keçirilə bilər.

**2.6.** Hakimliyə namizədliyinin qeydə alınmasını istəyən şəxslər müvafiq sənədləri Komitənin rəsmi elektron poçt ünvanına elektron formada göndərə və ya şəxsən təqdim edə bilərlər. Məhkəmə-Hüquq Şurasının Aparatı təqdim edilmiş sənədlərin tamlığını və düzgünlüyünü yoxlayır. Sənədlər bu Qaydaların tələblərinə uyğun olduqda ərizələrin qəbulu jurnalında qeydiyyata alınır, namizəd ümumi siyahıya salınır, ona sənədlərin qəbulu barədə qəbz, rəqəmlə ifadə olunan və namizədin sənədlərinin anonimliyinin qorunmasına xidmət edən şəxsi eyniləşdirmə kodu və "Hakim vəzifəsinə namizədin yaddaş kitabçası" verilir. Yaddaş kitabçasında test imtahanı, yazılı imtahan və müsahibənin prosedur məsələləri, habelə vakant hakim vəzifəsinə namizədlərin seçilməsi ilə bağlı digər zəruri məlumatlar əks etdirilir.

**2.7.** Natamam və ya bu Qaydaların tələblərinə uyğun olmayan sənədlər qəbul edilmir və ərizəçiyə aşkar olunmuş çatışmazlıqlar izah olunur. Qəbul edilmiş sənədlərdə sonradan uyğunsuzluq aşkarlanarsa, sənədlər əsaslandırılmış cavabla geri qaytarılır. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlər ərizələrin qəbulu üçün müəyyən edilmiş müddət çərçivəsində yenidən təqdim oluna bilər.

**2.8.** Namizədin hakim vəzifəsinə təyin edilməsinin mümkün olub-olmaması qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlanılır.

**2.9.** Hakim vəzifəsi üçün qanunla müəyyən edilmiş şərtlərə cavab verməyən, habelə bilərəkdən yanlış məlumatlar vermiş namizədlər seçim prosesindən kənarlaşdırılır.

## 3. Test imtahanı

**3.1.** Test imtahanı 100 sualdan (test tapşırığından) ibarətdir. Onlardan 95 sual verilən cavab variantlarından 1 doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb olunan qapalı tipli test tapşırıqları, 5 sual isə cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazı ilə ifadə olunması tələb olunan açıq tipli test tapşırıqlarıdır.

**3.2.** Test tapşırıqlarının 90-ı namizədin müvafiq qanunvericilik sahələri üzrə biliklərini, 10-u isə məntiqi nəticələr çıxarmaq qabiliyyətini müəyyən etmək məqsədi daşıyır. Hər bir sualın düzgün cavablandırılması 1 balla, yanlış cavablandırılması və ya cavablandırılmaması isə 0

balla qiymətləndirilir. Test imtahan üzrə toplanılması mümkün olan ümumi (maksimal) bal 100-dür.

**3.3.** Test imtahanı 4 (dörd) saat müddətində fasilə verilmədən kompüter və (və ya) kağız daşıyıcılar vasitəsilə keçirilir.

**3.4.** İmtahanın keçirilmə forması barədə namizədlərə həmin imtahana azı 20 gün qalmış məlumat verilir.

**3.5.** Test imtahanına 2 gün qalmış hər bir namizədə "İmtahana buraxılış vərəqəsi" təqdim edilir. "İmtahana buraxılış vərəqəsi"ndə namizədin şəxsi eyniləşdirmə kodu, imtahan keçirilən ünvan, tarix, saat, auditoriyanın nömrəsi, auditoriyadakı sıra və yer nömrəsi göstərilir.

**3.6.** Test imtahanında yalnız şəxsi eyniləşdirmə kodundan istifadə olunur. "İmtahana buraxılış vərəqəsi"nə namizədin adının, soyadının və şəxsiyyətini müəyyən edən digər məlumatların yazılmasına yol verilmir. Bu qaydanı pozmuş namizəd imtahandan kənarlaşdırılır.

**3.7.** Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini mütləq imtahana gətirməlidirlər. Göstərilən sənədlər arasında uyğunsuzluq aşkarlandıqda və ya sənədlərin biri olmadıqda namizəd imtahana buraxılmır. "İmtahana buraxılış vərəqəsi"ni itirmiş yaxud həmin sənədə düzəliş etmiş şəxs imtahana buraxılmır və ona yeni "İmtahana buraxılış vərəqəsi" verilmir.

**3.8.** Test imtahanının keçirilməsini təmin etmək məqsədi ilə Hakimlərin Seçki Komitəsi tərəfindən imtahan rəhbəri və imtahan nəzarətçiləri təyin olunurlar. İmtahan nəzarətçilərinin sayı hər auditoriya üzrə ən azı iki nəfər olmalıdır.

**3.9.** Test imtahanı zamanı namizədin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

**3.10.** saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

**3.11.** imtahanlara mobil telefon və digər rabitə vasitələri, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

**3.12.** imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla girmək, özü ilə tütün məmulatı gətirmək;

**3.13.** səbəbindən asılı olmayaraq imtahan başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və imtahanın gedişinə mane olmaq;

**3.14.** başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

**3.15.** nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

**3.16.** cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalını tərk etmək.

**3.17.** Namizədin bu Qaydaların 3.9-cu bəndində qeyd olunan hərəkətlərə yol verməsi halları aşkar edildikdə, imtahanın rəhbəri və nəzarətçi bu barədə akt tərtib edir və namizədin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən ləğv edilir. Bu qərardan məhkəməyə şikayət verilə bilər.

**3.18.** İmtahanların şəffaflığının təmin edilməsi məqsədilə Hakimlərin Seçki Komitəsi beynəlxalq, habelə hökumət və qeyri-hökumət təşkilatlarını, media subyektlərini imtahanları müşahidə etməyə dəvət edə bilər. Dəvət olunmuş və ya imtahanları müşahidə etmək təşəbbüsü ilə müraciət etmiş təşkilatlar və media subyektləri öz nümayəndələrinin siyahılarını ən geci 7 gün qalmış Hakimlərin Seçki Komitəsinə təqdim edirlər. Təqdim edilmiş nümayəndələr Komitə tərəfindən akkreditə olunurlar.

**3.19.** Müşahidəçilər tərəfindən imtahanın gedişinə müdaxilə edilməsi, habelə namizədlərin fikrinin yayındırılması və onların imtahan prosesindən ayrılması yolverilməzdir. Müşahidəçilər belə hərəkətlərə yol verərlərsə, namizədlər bu faktı imtahan rəhbərinin nəzərinə çatdırmalıdır.

**3.20.** Namizəd imtahanın başlanmasına azı bir saat qalmış imtahan verəcəyi binanın qarşısına gəlməli (ünvan "İmtahana buraxılış vərəqəsi"ndə göstərilir), binanın girişində "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini buraxılış rejimini həyata keçirən şəxsə təqdim edib binaya daxil olmalı və "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən auditoriyada öz yerini tutmalıdır. Hər parta (və ya kompüter) arxasında bir namizəd əyləşir.

**3.21.** Test imtahanı bir auditoriyada keçirilir. Bu mümkün olmadıqda şəffaflığın təmin edilməsi məqsədilə imtahan prosesi digər auditoriyalara birbaşa (canlı) video translyasiya olunur.

**3.22.** Test imtahanının sualları konfidensiallıq gözlənilməklə Hakimlərin Seçki Komitəsi tərəfindən tərtib edilir. Komitə suallar toplusunun tərtib edilməsinə hüquq sahəsi və digər sahələr üzrə mütəxəssislər cəlb edə bilər. Hazırlanmış suallar toplusunda sualların sayı imtahanda istifadə ediləcək sualların sayından azı 10 dəfə çox olmalıdır.

**3.23.** Test imtahanının suallarının hazırlanması imtahana ən azı 3 gün qalmış başa çatdırılmalıdır. Suallar toplusuna Hakimlərin Seçki Komitəsinin qapalı iclasında baxılıb təsdiq edildikdən sonra həmin suallar toplusu zərfə qoyulub möhürlənməklə xüsusi yerdə saxlanılır.

**3.24.** Hakimlərin Seçki Komitəsi həmçinin test imtahanının suallar toplusuna dair düzgün cavabların konfidensial siyahısını tərtib edir. Siyahı Hakimlərin Seçki Komitəsinin üzvləri tərəfindən imzalanır, ayrıca zərfə qoyularaq möhürlənir və Komitədə xüsusi yerdə saxlanılır. Suallar toplusundan imtahanda istifadə ediləcək testlərin seçilməsinə dair texniki tapşırıq Hakimlərin Seçki Komitəsinin qərarı ilə təsdiq edilir.

**3.25.** Test imtahanının sualları bilavasitə imtahan başlamazdan əvvəl, imtahan keçirilən auditoriyaların birində aşkar surətdə ümumi suallar toplusundan seçilir. Bunun üçün suallar toplusu olan zərf müşahidəçilərin iştirakı ilə açılır və suallar toplusu kompüterə daxil edilir. Kompüter verilmiş proqrama uyğun olaraq ümumi sual bankından 100 sual seçir. İmtahan kağız daşıyıcıda keçirilərsə, seçilmiş suallar yerindəcə, bu mümkün olmazsa, seçilmiş sualların nəzarət nüsxəsi namizədlərin gözü qarşısında konfidensial saxlanılmaqla qısa müddətdə müvafiq mətbəədə namizədlərin sayına uyğun olaraq çoxaldılır və imtahan verənlərə ötürülmək üçün imtahan rəhbərinə verilir. Sualların seçilməsi və çoxaldılması imtahan keçirilən auditoriyaların birində həyata keçirildikdə bu prosedur imtahan keçirilən digər auditoriyalara birbaşa (canlı) video translyasiya olunur.

**3.26.** Suallar seçildikdən sonra imtahan rəhbəri nəzarətçi və müşahidəçi ilə birlikdə cavab kartı zərfinin möhürünü açır, cavab kartını namizədlərə paylayır və onun doldurulması qaydalarını izah edir. Daha sonra namizədlərə sual kitabçaları paylanır.

**3.27.** Hər auditoriyada imtahanın başlanma vaxtı sual kitabçası paylanıb qurtardığı andan hesablanır.

**3.28.** Test imtahanı kağız daşıyıcılar vasitəsi ilə keçirildikdə cavab kartında düzgün cavabın yerləşdiyi hərfli dairə qara və ya tünd göy rəngdə yazan diyircəkli qələmlə doldurulmalıdır. Korlanmış cavab kartı dəyişdirilmir. Bir suala aid olan bir neçə dairə qaralanarsa, həmin cavab etibarsız sayılır və ümumi nəticəyə hesablanmır. Cavab kartı onu doldurmuş şəxs tərəfindən imzalanır.

**3.29.** Test imtahanı qurtardıqdan sonra namizəd doldurduğu cavab kartını imtahan nəzarətçilərinə təhvil verir və auditoriyanı tərk edir.

**3.30.** Test imtahanının başa çatması barədə protokol tərtib edilir. Protokol nəzarətçilər və iki nəfər namizəd tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir, imtahan rəhbərinə verilir. İmtahan rəhbəri möhürlənmiş zərfi Hakimlərin Seçki Komitəsinin sədrinə təqdim edir.

**3.31.** Cavab kartlarının yoxlanılmasını Hakimlərin Seçki Komitəsi həyata keçirir.

**3.32.** Test imtahanının cavab kartlarının yoxlanılması və balların hesablanması müvafiq mütəxəssislər cəlb edilməklə avtomatlaşdırılmış rejimdə kompüterlər vasitəsilə həyata keçirilir. Bunun üçün möhürlənmiş cavab kartları və test imtahanı suallarına düzgün cavabların siyahısı cəlb edilmiş mütəxəssislərə təqdim edilir.

**3.33.** Cavab kartlarının yoxlanılması başa çatdıqdan sonra imtahanın nəticələri cavab kartları ilə birlikdə Hakimlərin Seçki Komitəsinə təqdim edilir.

**3.34.** Test imtahanı Hakimlərin Seçki Komitəsi tərəfindən kompüter vasitəsilə təşkil olunduqda sualların seçilməsi, cavablandırılması və imtahanın nəticələrinə dair arayışın dərhal namizədə təqdim edilməsi bu sahədə müvafiq mütəxəssislərin cəlb edilməsi ilə xüsusi proqram təminatının köməkliyi ilə həyata keçirilir.

**3.35.** Müasir informasiya texnologiyalarının, imtahanların təşkilinin və keçirilməsinin mütərəqqi üsullarının tətbiqi, namizədlər üçün daha şəffaf və əlverişli şəraitin yaradılması məqsədilə test imtahanı Hakimlərin Seçki Komitəsinin sifarişi əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra-Mərkəz) tərəfindən bu Qaydaların tələbləri gözlənilməklə keçirilə bilər.

**3.36.** Test imtahanı Mərkəz tərəfindən keçirildikdə Hakimlərin Seçki Komitəsinin üzvlərinin və Komitənin müəyyən etdiyi mütəxəssislərin iştirakı ilə test imtahanlarının sual bankının daimi təkmilləşdirilməsi, test sualların hazırlanması, ekspertizası və suallar toplusundan imtahan suallarının seçilməsi, imtahanın kompüter vasitəsilə keçirilməsi və onun nəticələrinə dair arayışın dərhal namizədə təqdim edilməsi, habelə imtahanla bağlı digər təşkilati tədbirlərin görülməsi Mərkəz tərəfindən müəyyən olunmuş qaydada təmin olunur.

**3.37.** Namizədlər üçün Mərkəz tərəfindən keçirilən test imtahanında iştirak ödənişlidir. Ödənişin məbləği Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 2017-ci il 23 may tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət qulluğu ilə bağlı ödənişli xidmətlərin tarifləri”nin 1.1-ci bəndinə uyğun olaraq müəyyən edilir.

**3.38.** Test imtahanının yekununa görə 60 və ya daha çox bal toplamış namizədlər yazılı imtahana buraxılırlar. Yazılı imtahana buraxılmış namizədlərin siyahısı yalnız şəxsi eyniləşdirmə kodu göstərilməklə mediada və Məhkəmə-Hüquq Şurasının rəsmi internet səhifəsində dərc edilir.

**3.39.** Test imtahanının nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona elan olunduğu vaxtdan 3 iş günü müddətində Hakimlərin Seçki Komitəsinə, test imtahanı Mərkəz tərəfindən keçirildikdə isə Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər. Müraciətə aidiyyəti mütəxəssislərlə birlikdə baxılır və namizədə əsaslandırılmış cavab verilir.

**3.40.** Namizədin nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, yenidən hesablama aparılır və namizədin imtahan nəticələri yenilənir. Müraciətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir. Araşdırma nəticəsində namizədin keçid balı topladığı müəyyən edilərsə, onun növbəti mərhələyə buraxılması barədə qərar qəbul edilir.

## 4. Yazılı imtahan

**4.1.** Namizədlərlə yazılı imtahan onların müvafiq qanun və ya digər normativ hüquqi aktı tətbiq etmək qabiliyyətini müəyyənləşdirmək məqsədilə keçirilir.

**4.2.** Yazılı imtahan kompüter və (və ya) kağız daşıyıcılar vasitəsilə keçirilə bilər. İmtahanın keçirilmə forması barədə namizədlərə həmin imtahana azı 20 gün qalmış məlumat verilir.

**4.3.** Yazılı imtahanın keçirilməsi üçün müvafiq şərait (imtahan zalları, nəzarətçilər, kompüter avadanlıqları və s.) Hakimlərin Seçki Komitəsinin sifarişi əsasında Mərkəz tərəfindən təmin edilə bilər.

**4.4.** İmtahan başlamazdan bilavasitə əvvəl Hakimlərin Seçki Komitəsi imtahan keçirilən binada imtahan verilən auditoriyaya yaxın otaqda öz qapalı iclasında yazılı imtahana təqdim edilməli olan kazusların sayını müəyyən edir. Kazusların sayı cinayət və mülki (mülki, ailə, əmək münasibətlərindən irəli gələn mübahisələr) hüquq sahələrini əhatə etmək şərti ilə cüt rəqəmlə ifadə olunmalıdır. Bundan sonra Komitə üzvləri qapalı iclasında müəyyən edilmiş sayda kazusları hazırlayırlar. Həmin kazuslar Hakimlərin Seçki Komitəsinin yekdil qərarı ilə təsdiq edilir, çap edilərək xüsusi zərfə qoyularaq möhürlənir. Kazusların elektron daşıyıcıda olan nüsxəsi də xüsusi zərfə qoyularaq möhürlənir.

**4.5.** Kazuslar təsdiq edildikdən sonra Hakimlərin Seçki Komitəsinin üzvləri həmin kazuslarla birlikdə, kənar şəxslərlə ünsiyyətə yol verməmək şərti ilə imtahan keçirilən auditoriyaya daxil olurlar. Burada kazuslar cinayət hüquqi və mülki hüquqi sahələr üzrə diferensiasiya edilir və onların içindən namizədlərin biri püşk yolu ilə hər sahəyə aid bir kazusu seçir. Seçilmiş kazuslar elan edilir və xüsusi proqram təminatı vasitəsi ilə (yaxud surətləri çıxarılmaqla) namizədlərə təqdim olunur.

**4.6.** Kazusların yazılı şəkildə həll edilməsi (cavablandırılması) üçün namizədlərə 4 saat vaxt verilir. İmtahan bir neçə auditoriyada təşkil edildikdə kazusların seçilməsi və elan edilməsi proseduru imtahan keçirilən digər auditoriyalara birbaşa (canlı) video translyasiya olunur.

**4.7.** Namizədlər kazusları həll edərkən kazusun faktiki hallarına uyğun düzgün maddi hüquq normasının müəyyən edilməsi və tətbiqi, mübahisənin həlli ilə bağlı zəruri olan prosessual hüquq normalarının tətbiqi, habelə tətbiq edilən normaların məzmununu kazusun halları baxımından izahını vermək bacarıqlarını nümayiş etdirməlidirlər. Kazusların həll edilməsinə dair izahatlar və onların qiymətləndirilməsi zamanı diqqət yetiriləcək məqamlar "Hakim vəzifəsinə namizədin yaddaş kitabçası"nda əks etdirilir.

**4.8.** Yazılı imtahan işləri "ikiqat yoxlama" üsulu ilə Hakimlərin Seçki Komitəsinin üzvləri və dəvət olunmuş mütəxəssislər tərəfindən yoxlanılır. Hər iki yoxlamanın yekununda verilmiş balların toplanması və 2-yə bölünməsi yolu ilə namizədin ayrı-ayrılıqda cinayət hüquqi və mülki hüquqi sahələr üzrə topladığı ballar müəyyən edilir.

**4.9.** Hər bir sahə üzrə kazusun cavabı ən çoxu 100 bal ilə qiymətləndirilir. Namizədin həm cinayət hüquqi, həm də mülki hüquqi sahələr üzrə topladığı ballar cəmlənir və 2-yə bölünərək, yekun bal müəyyən edilir. Topladığı yekun bal 60 və ya daha çox olan namizəd yazılı imtahandan keçmiş hesab edilir, bu şərtlə ki, onun hər sahə üzrə ayrı-ayrılıqda topladığı ballar 40-dan az olmasın.

**4.10.** Yazılı imtahanın nəticələri namizədlərin yalnız şəxsi eyniləşdirmə kodu göstərilməklə mediada və Məhkəmə-Hüquq Şurasının rəsmi internet səhifəsində dərc edilir.

**4.11.** Hər namizədə onun tələbi ilə imtahanın nəticəsi üzrə arayış verilir.

**4.12.** Yazılı imtahan nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona elan olunduğu vaxtdan 5 gün müddətində mübahisəyə aydınlıq gətirilməsi üçün Hakimlərin Seçki Komitəsinə müraciət edə bilər. Məsələ ərizəçinin iştirakı ilə araşdırılır. Bu müddəa namizədi ümumi qaydada şikayət etmək hüququndan məhrum etmir.

**4.13.** Cavab vərəqi düzgün qiymətləndirildikdə ərizəçiyə əsaslandırılmış rəsmi cavab verilir. Balların düzgün hesablanmadığı aşkar edildikdə yenidən hesablama aparılır.

**4.14.** Hakimlərin Seçki Komitəsinin qərarından həmin qərar təqdim edildiyi gündən 10 gün müddətində Məhkəmə-Hüquq Şurasına şikayət verilə bilər. Məhkəmə-Hüquq Şurası həmin şikayətlərə "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada baxır.

**4.15.** Hakimlərin Seçki Komitəsi seçki prosesi ilə bağlı aidiyyəti sənədlərin qanunvericiliklə müəyyən edilmiş müddətdə saxlanılmasını təmin edir.

## 5. Hakimliyə namizədlərlə müsahibə

**5.1.** Yazılı imtahandan müvəffəqiyyətlə keçmiş namizədlər onların hakim vəzifəsinə yararlılığını və zəruri keyfiyyətlərə malik olmasını müəyyən etmək məqsədi ilə müsahibə mərhələsinə buraxılırlar.

**5.2.** Müsahibə zamanı namizədə onun hüquq sahəsində nəzəri və praktiki biliklərini, habelə məntiqi nəticələr çıxarmaq qabiliyyətini müəyyən edən suallar verilir, biliklərinin tətbiqi, özünü təqdimetmə bacarıqları, ümumi dünyagörüşü, təmkinliliyi, fikir və rəyini ifadə etmək, analitik düşünmək qabiliyyəti yoxlanılır.

**5.3.** Müsahibə barədə namizədlər Məhkəmə-Hüquq Şurasının Aparatı tərəfindən 5 gün əvvəl xəbərdar edilir və imtahanın keçirildiyi yer, tarix və vaxt barədə onlara məlumat verilir.

**5.4.** Müsahibə açıq, hər bir namizədlə fərdi qaydada söhbət formasında və təqribən 1 saat aparılır. Hər namizədə 10 sual verilir. Eyni gündə müsahibədə iştirak edən namizədlərə eyni suallar verilir. İmtahanda iştirak edən Hakimlərin Seçki Komitəsinin üzvü namizədə ən çoxu 2 sualla müraciət edə bilər.

**5.5.** Hakimlərin Seçki Komitəsi üzvləri namizədin cavabları ilə bağlı fikir mübadiləsi apara bilərlər.

**5.6.** Namizədə verilən suallar və bu suallara namizədin cavabları Komitə üzvləri tərəfindən bal cədvəlinə yazılır və qiymətləndirilir. Yekun müsahibənin ümumi nəticəsi Hakimlərin Seçki Komitəsinin sədrinə təqdim edilir.

**5.7.** Namizədlərin cavabları hər bir sual üzrə 10 ballıq şkala ilə qiymətləndirilir və suallar üzrə hər bir Komitə üzvünün sayına bölünməklə verdiyi balların ortalaması ilə müəyyən edilir. Hər bir namizəd ən çoxu 100 bal toplaya bilər. 60 və ya daha çox bal toplamış namizəd müsahibədən keçmiş hesab olunur.

**5.8.** Müsahibəni müşahidə etməyə gələnlər özləri ilə şəxsiyyətlərini təsdiq edən sənəd gətirməlidirlər. İmtahan vermiş namizəd şifahi imtahanı dinləyici kimi izləyə bilər. Bu zaman imtahanın keçirilməsinə mane olmaq yolverilməzdir.

**5.9.** Hakimliyə namizədlərin seçilməsi prosesinə psixoloq cəlb edilə bilər. Psixoloq namizədin psixoloji portreti barədə rəy verir.

## 6. Namizədlərin təsnifləşdirilməsi və onların hakim vəzifəsinə təyin edilməsinə dair təklifin verilməsi

**6.1.** Namizədlər test imtahanı, yazılı imtahan və müsahibə nəticələrinə uyğun olaraq topladıqları ballara uyğun sıralanırlar. Bərabər nəticələr əldə etmiş şəxslərdən ali təhsil pilləsinin daha yüksək səviyyəsini bitirənlərə, təhsil səviyyəsi eyni olduqda isə təhsil müəssisəsini fərqlənmə ilə bitirənlərə və xarici dil bilənlərə üstünlük verilir.

**6.2.** Hakimlərin Seçki Komitəsi namizədlərin müvafiq məhkəmələrdə (ümumi və ya ixtisaslaşdırılmış) hakim vəzifəsinə uyğunluğuna dair rəy tərtib edir. Rəyin hazırlanması ilə əlaqədar namizədlərə topladıqları bala uyğun olaraq müvafiq vakant hakim vəzifələri arasından seçim imkanı yaradılır.

**6.3.** Hakimlərin Seçki Komitəsi hakim vəzifəsinə seçilmiş namizədlərə dair Məhkəmə-Hüquq Şurasına təkliflər verir.

**6.4.** Hakim vəzifəsinə seçilmiş namizəd barəsində təklifdə aşağıdakı məlumatlar əks etdirilir:

**6.4.1.** adı, atasının adı, soyadı;

**6.4.2.** tərcümeyi-hal və xarakterizəedici məlumatlar;

**6.4.3.** test imtahanı, yazılı imtahan və müsahibənin nəticələri;

**6.4.4.** hakim vəzifəsinə uyğunluğu, o cümlədən ixtisaslaşdırma haqqında rəy Məhkəmə-Hüquq Şurası hakim vəzifəsinə seçilmiş namizədlər barəsində Hakimlərin Seçki Komitəsinin təkliflərinə baxır, namizədlərin seçilməsində qanunların və bu Qaydaların tələblərinə əməl olunmasını aydınlaşdırır və namizədlərlə söhbət aparır.

**6.5.** Söhbətin nəticələrinə və Hakimlərin Seçki Komitəsinin müvafiq rəyinə əsaslanaraq Məhkəmə-Hüquq Şurası namizədlərin ixtisaslaşdırılmasını aparır və mövcud vakant hakim vəzifələrinə təyin olunmaları barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir.

**6.6.** Vakant hakim vəzifəsinə təyin edilmə haqqında təqdimatda namizəd barəsində aşağıdakı məlumatlar göstərilir:

**6.6.1.** adı, soyadı, atasının adı;

**6.6.2.** tərcümeyi-hal və xarakterizəedici məlumatlar;

**6.6.3.** test imtahanı, yazılı imtahan və müsahibənin nəticələri;

**6.6.4.** hakim vəzifəsinə uyğunluğu barədə məlumat, o cümlədən ixtisaslaşdırma haqqında rəy;

**6.6.5.** təyin edilməsi təklif olunan vəzifə.

---

## HAKİMLİYƏ NAMİZƏDİN İMTAHANQABAĞI VƏZİFƏLƏRİ

1. Namiəzd imtahanın başlanmasına azı 1 saat qalmış imtahan verəcəyi binanın qarşısına gəlməli (ünvan İmtahana buraxılış vərəqəsində göstərilir), binanın girişində "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini buraxılış rejimini həyata keçirən şəxsə təqdim edib binaya daxil olmalı və "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən auditoriyada öz yerini tutmalıdır. Hər parta (və ya kompüter) arxasında bir namizəd əyləşir.

2. İmtahana buraxılış vərəqəsi ilə ehtiyatlı davranın. Bu sənədi qatlamaq, bükmək, zədələmək, onda düzəlişlər etmək qadağandır. "İmtahana buraxılış vərəqəsi"ni itirmiş yaxud həmin sənədə düzəliş etmiş şəxs imtahana buraxılmır və ona yeni "İmtahana buraxılış vərəqəsi" verilmir.

3. "İmtahana buraxılış vərəqəsi"nə namizədin adının, soyadının və şəxsiyyətini müəyyən edən digər məlumatların yazılmasına yol verilmir. Bu qaydanı pozmuş namizəd imtahandan kənarlaşdırılır.

## TEST İMTAHANI

1. Test imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən bunun üçün xüsusi nəzərdə tutulmuş kompüterlərlə təchiz olunmuş auditoriyalarda keçiriləcəkdir. Şəffaflığın təmin edilməsi məqsədilə imtahan prosesi digər auditoriyalara birbaşa (canlı) video translyasiya olunur.
2. İmtahan başlandıqdan 30 dəqiqə keçənədək gecikən namizədlər imtahana buraxılır. Gecikən namizədlərə əlavə vaxt verilmir.
3. Namizəd şəxsiyyətini vəsiqəsini və buraxılış vərəqəsini təqdim etməklə imtahan zalında qeydiyyatdan keçir.
4. Namizəd imtahan zalında onun üçün ayrılmış kompüterin qarşısında əyləşir və ekrandakı göstərişləri diqqətlə izləyir. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün 15 dəqiqə vaxt verilir.
5. Namizəd ekrandakı şəxsi məlumatların düzgün qeyd olunduğunu diqqətlə yoxlayır. Hər hansı bir səhv aşkar etdikdə zal nəzarətçisinə müraciət edə bilər.
6. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün ayrılan vaxt tamamlandıqdan sonra imtahan başlanır.
7. Test imtahanı 100 sualdan (test tapşırığından) ibarətdir. Onlardan 95 sual verilən cavab variantlarından 1 doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb olunan qapalı tipli test tapşırıqları, 5 sual isə cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazı ilə ifadə olunması tələb olunan açıq tipli test tapşırıqlarıdır.
8. Test tapşırıqlarının 90-ı namizədin müvafiq qanunvericilik sahələri üzrə biliklərini, 10-u isə məntiqi nəticələr çıxarmaq qabiliyyətini müəyyən etmək məqsədi daşıyır. Hər bir sualın düzgün cavablandırılması 1 balla, yanlış cavablandırılması və ya cavablandırılmaması isə 0 balla qiymətləndirilir. Test imtahan üzrə toplanılması mümkün olan ümumi (maksimal) bal 100-dür.
9. Test imtahanı 4 (dörd) saat müddətində fasilə verilmədən kompüter və (və ya) kağız daşıyıcılar vasitəsilə keçirilir.
10. Test tapşırıqlarını istənilən ardıcıllıqla cavablandırmaq olar.
11. İmtahan suallarının annotasiyası (imtahan suallarının əhatə etdiyi sahələr barədə məlumat), onların tərtibində istifadə edilmiş qanunların və digər normativ-hüquqi aktların siyahısı Hakimlərin Seçki Komitəsi tərəfindən hazırlanaraq əvvəlcədən hakimliyə namizədə təqdim olunur və internetdə dərc edir.
12. Namizədlər imtahanda köməkçi vasitə kimi yalnız qələmdən və DİM tərəfindən verilən xüsusi formalı qeyd vərəqindən istifadə edə bilər.

**DİQQƏT!** Başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək olmaz.

İmtahandan sonra köçürmə hallarının aşkar edilməsi məqsədilə aparılan araşdırma nəticəsində köçürmə faktı müəyyən edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv edilir.

**DİQQƏT!** İmtahan zamanı şəffaflığın və nizam-intizamın təmin edilməsi məqsədilə imtahan prosesinin videoçəkilişi aparılır.

13. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda namizəd imtahanın nəticələrinə dair arayış əldə edir və imtahan zalını tərk edir.
14. İmtahandan sonra keçiriləcək ekspertiza nəticəsində hər hansı bir test tapşırığı səhv hesab edilərsə, həmin tapşırıq bütün namizədlər üçün düzgün cavablandırılmış sayılır.
15. İmtahan nəticələri haqqında məlumat www.jlc.gov.az saytında yerləşdirilir.

## HAKİMLİYƏ NAMİZƏDƏ QADAĞANDIR:

1. Saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

2. İmtahanlara mobil telefon və digər rabitə vasitələri, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

3. imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla girmək, özü ilə tütün məmulatı gətirmək;

4. səbəbindən asılı olmayaraq imtahan başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və imtahanın gedişinə mane olmaq;

5. başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

7. cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalını tərk etmək.
8. İmtahanın başlanma vaxtından 45 dəqiqə keçənədək imtahan zalından çıxmaq.

**DİQQƏT!** İmtahan zamanı qaydaları pozan namizədlərə ***müvafiq xəbərdarlıq edilir və ya onlar*** imtahandan kənarlaşdırılır və nəticələri ləğv edilir.

9. Hakimliyə namizədlərin seçilməsi qaydalarının və bu Yaddaş kitabçasının şərtlərinə dair hər hansı bir pozuntuya və saxtakarlığa yol verməsinə görə (saxta sənədlər təqdim etmə, köçürmə, imtahana öz yerinə başqasını göndərmə və Qaydalara zidd digər hərəkətlər) hakimliyə namizədin imtahan nəticələrinin ləğv olunması və onun haqqında müvafiq tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

Əgər siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin. Nəzarətçi lazımi ölçü götürməsə, imtahan rəhbəri və ya Hakimlərin Seçki Komitəsinin nümayəndəsinin zala dəvət edilməsini tələb edə bilərsiniz.

## TEST İMTAHANI SUALLARININ ANNOTASİYASI

**Vakant olan hakim vəzifələrinə namizədlər üçün keçiriləcək test imtahanında hüququn müxtəlif sahələrinə dair suallardan istifadə ediləcəkdir.**

**İmtahanda müvəffəqiyyət qazanmaq üçün hakimliyə namizədlər:**

- **Azərbaycan Respublikasının Konstitusiyasını;**
- **Azərbaycan Respublikasının Mülki Məcəlləsini;**
- **Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsini;**
- **Azərbaycan Respublikasının Cinayət Məcəlləsini;**
- **Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsini;**
- **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini;**
- **Azərbaycan Respublikasının İnzibati prosessual Məcəlləsini;**
- **Azərbaycan Respublikasının Əmək Məcəlləsini;**
- **Azərbaycan Respublikasının Ailə Məcəlləsini;**
- **Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini;**
- **"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununu;**
- **"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununu;**
- **"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununu;**
- **"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu;**
- **"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu mükəmməl bilməlidirlər.**

**Bundan başqa test imtahanına hazırlaşarkən hakimliyə namizədlərin aşağıdakı qanunvericilik aktlarında qeyd edilmiş məsələlərə xüsusi diqqət yetirmələri məsləhət bilinir:**

**"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının** qəbulu və qüvvəyə minməsi, Konvensiyada təsbit olunmuş insan hüquqlarının dairəsi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimlərinin təyinatı, məhkəmənin iş fəaliyyəti, habelə konvensiyaya dair Azərbaycan Respublikasının qeyd- şərtlərinə;

**Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında** muxtar respublikanın statusu, muxtariyyatın əsasları, məhkəmə hakimiyyəti, qanunvericilik sistemi ilə bağlı məsələlərə;

**"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında"** Konstitusiya qanununda insan hüquqları üzrə Müvəkkilin fəaliyyətinin əsasları, seçilməsi və onun tərəfindən insan hüquqlarinin pozulmasina dair şikayətlərə baxilması və milli preventiv mexanizmin funksiyalarinin həyata keçirilməsi məsələlərinə;

**"Normativ hüquqi aktlar haqqında"** Konstitusiya qanununda normativ, qeyri-normativ hüquqi aktlar və normativ xarakterli aktlar, onların növləri və hüquqi qüvvəsi, normativ hüquqi aktların kolliziyası, qanunvericilikdə boşluqlar, normativ hüquqi aktlarin rəsmi dərc edilməsi və qüvvəyə minməsi məsələlərinə;

**Mənzil Məcəlləsində** mənzil hüquqlarının əsasları, mənzil münasibətlərinin dairəsi, iştirakçıları, onların hüquq və vəzifələri, mənzil hüquq və vəzifələrinin əmələ gəlməsinin əsasları, yaşayış sahəsi mülkiyyətçisinin və ona məxsus olan sahədə yaşayan digər

vətəndaşların hüquq və vəzifələri, mənzil hüququnun obyektləri, mənzil fondunun növləri, mənzil-tikinti kooperativi və mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinin hüquqi statusu ilə bağlı məsələlərə;

**Torpaq Məcəlləsində** Azərbaycan Respublikasının vahid torpaq fondu və onun tərkibi, torpaqların məqsədli təyinatı və hüquqi rejimi, torpağa mülkiyyət hüququnun formaları və onların xüsusiyyətləri, torpaq sahəsi üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının yaranması və xitamının əsasları, torpaq sahələrinin dövriyyəsi ilə bağlı məsələlərə;

**Şəhərsalma və Tikinti Məcəlləsində** tikinti obyektinə dair tələblər, yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtləri, tikintiyə icazənin verilməsi üzrə icraat, tikintinin dayandırılması əsasları və tikintinin başa çatması zamanı həyata keçirilən prosedurlar və bu sahədə səlahiyyətli orqanların dairəsinə;

**Vergi Məcəlləsində** Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər, vergi anlayışı kommersiya və vergi sirri, vergi ödəyicisi, onun hüquq və vəzifələri, vergilərin növləri, vergi yoxlamaları və vergi nəzarətinin formaları, vergi orqanlarının qərarlarından (aktlarından) və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi, vergi mübahisələrində sübut etmə vəzifəsi, habelə vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət məsələlərinə;

**Seçki Məcəlləsində** seçkilərin və referendumun keçirilməsini istisna edən hallar, seçki hüququnun təminatları və məhdudiyyətlər, seçki və referendum orqanları, referenduma, Azərbaycan Respublikası Prezidentinin və Milli Məclisin deputatlarının seçkilərinə dair ümumi müddəalar, Milli Məclisin deputatını mandatdan məhrumetmə, vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayət edilməsi və şikayətlərin araşdırılması məsələlərinə;

**Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində** ümumi müddəalar (1-ci fəsil), haqsız rəqabət (6-cı fəsil), rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti tədbirləri (10-cu fəsil), rəqabət qanunvericiliyinin pozulması haqqında işlərə baxılması (11-ci fəsil), rəqabət qanunvericiliyinə görə məsuliyyət (12-ci fəsil) bağlı məsələlər;

**Arbitraj haqqında Azərbaycan Respublikasının Qanununda** qanunun tətbiq dairəsi, arbitraja münasibətdənəzarət və yardım funksiyalarını yerinə yetirən məhkəmə, arbitrajda həll edilə bilən mübahisələr, müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası, arbitraj məhkəmələrinin qərarlarından şikayət verilməsi, arbitraj qərarlarının tanınmasıvə icra edilməsi ilə bağlı məsələlər;

**“Dövlət qulluğu haqqında”** qanunda dövlət orqanı anlayışı və dövlət orqanlarının təsnifatı, dövlət qulluğuna xitam verilməsi ilə bağlı məsələlərə;

**“Əmək pensiyaları haqqında”** qanunda əmək pensiyalarının növləri *və* tərkibi, onların təyin edilməsi şərtləri, güzəştli şərtlərlə yaşa görə pensiya hüququ olan şəxslərin dairəsinə;

**“Vətəndaşların müraciətləri haqqında”** qanunda qanunun tətbiqi dairəsinə və müraciətlərə baxılması qaydasına;

**“Mediasiya haqqında”** qanunda mediasiyanın tətbiq dairəsi və mediasiya prosesi ilə bağlı məsələlərə;

**“Məhkəmə ekspertizası fəaliyyəti haqqında”** qanunda ekspertin hüquq və vəzifələrinə, məhkəmə ekspertizalarının növlərinə, ekspertin dindirilməsi və məhkəmə-tibbi ekspertizasının aparılması məsələlərinə;

**“Korrupsiyaya qarşı mübarizə haqqında”** qanunda korrupsiya hüquqpozmalarının və korrupsiyaya şərait yaradan hüquqpozmaların dairəsinə, hədiyyə almaqla bağlı məhdudiyyətlərə;

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” qanununda** əsas anlayışlar, önləyici tədbirlər və monitorinq olunmalı əməliyyatlarla bağlı məsələlərə;

**“Polis haqqında”** qanunda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyəti, polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı məsələlərə;

**“Əməliyyat-axtarış fəaliyyəti haqqında”** qanunda əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi əsasları, müddəti, onların nəticələrindən istifadə edilməsi, əməliyyat axtarış fəaliyyətinə məhkəmə və prokuror nəzarəti məsələlərinə;

**“Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında”** qanunda xarici dövlət tərəfindən verilməsi sorğu edilən şəxsin verilməsindən imtina, habelə onun verilməsi qaydasına və şərtlərinə;

**“Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”** qanunun tətbiqi dairəsi və ziyanın ödənilməsi məsələlərinə;

**“Notariat haqqında”** qanunda notariat hərəkətləri və onların aparılmasından imtina, vəsiyyətnamələrin və etibarnamələrin təsdiq edilməsi xüsusiyyətləri, icra qeydinin verilməsi əsasları və notariusun hərəkətlərindən şikayət məsələlərinə;

**“İcra haqqında”** qanunda icra sənədlərinin dairəsinə, icra sənədlərinin icrasına nəzarət, icraata xitam verilməsinin əsasları və qaydası, icranın dayandırılması və icra sənədinin qaytarılması əsaslarına, tələbin borclunun əmlakına yönəldilməsi, borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması, icra məmurunun hərəkətlərindən şikayət məsələlərinə;

**“İnzibati icraat haqqında”** qanunda qanunun tətbiq dairəsi, aidiyyət, inzibati icraatın proseduru, inzibati akt, inzibati aktın etibarsızlığı və qanunsuz inzibati aktın ləğv olunması, şikayət instansiyasının səlahiyyətləri, inzibati aktın icrası ilə bağlı məsələlərə;

**“Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” qanunda** torpağın alınmasına əsas verən dövlət ehtiyacları, sahibliyin əldə edilməsi və kompensasiya ilə bağlı iddialar, mübahisələrin həlli məsələlərinə;

**“İpoteka haqqında”** qanunda ipoteka predmetinə tutmanin yönəldilməsi və ona xitam verilməsi məsələlərinə;

**“Publik hüquqi şəxslər haqqında”** qanunda publik hüquqi şəxsin yaradılması, nizamnaməsi və idarəçiliyi ilə bağlı məsələlərə;

**“Dövlət rüsumu haqqında”** qanunda məhkəməyə iddia və şikayətlər verilərkən dövlət rüsumunun dərəcələri və dövlət rüsumunun ödənilməsindən azad olan şəxslərin dairəsinə;

---

## YAZILI İMTAHAN

İmtahan bütün hakimliyə namizədlər üçün vahid auditoriyada keçiriləcəkdir.

Nəzarətçilər, Hakimlərin Seçki Komitəsi üzvləri, müşahidəçi qismində dəvət olunmuş beynəlxalq təşkilatların və qeyri-hökumət təşkilatlarının nümayəndələri imtahan gedən zalda imtahanın gedişini izləyəcəklər.

İmtahan başlamazdan bilavasitə əvvəl Hakimlərin Seçki Komitəsi imtahan keçirilən binada imtahan verilən auditoriyaya yaxın otaqda öz qapalı iclasında yazılı imtahana təqdim edilməli olan kazusların sayını müəyyən edir. Kazusların sayı cinayət və mülki (mülki, ailə, əmək münasibətlərindən irəli gələn mübahisələr) hüquq sahələrini əhatə etmək şərti ilə cüt rəqəmlə ifadə olunmalıdır. Bundan sonra Komitə üzvləri qapalı iclasında müəyyən edilmiş sayda kazusları hazırlayırlar. Həmin kazuslar Hakimlərin Seçki Komitəsinin yekdil qərarı ilə təsdiq edilir, çap edilərək xüsusi zərfə qoyularaq möhürlənir. Kazusların elektron daşıyıcıda olan nüsxəsi də xüsusi zərfə qoyularaq möhürlənir.

Kazuslar təsdiq edildikdən sonra Hakimlərin Seçki Komitəsinin üzvləri həmin kazuslarla birlikdə, kənar şəxslərlə ünsiyyətə yol verməmək şərti ilə imtahan keçirilən auditoriyaya daxil olurlar. Burada kazuslar cinayət hüquqi və mülki hüquqi sahələr üzrə diferensiasiya edilir və onların içindən namizədlərin biri püşk yolu ilə hər sahəyə aid bir kazusu seçir. Seçilmiş kazuslar elan edilir və xüsusi proqram təminatı vasitəsi ilə (yaxud surətləri çıxarılmaqla) namizədlərə təqdim olunur. Müşahidəçi qismində dəvət olunmuş beynəlxalq təşkilatların və ya qeyri-hökumət təşkilatlarının nümayəndəsi tərəfindən namizədlərin sırasından təsadüfi seçim yolu ilə müəyyənləşdirilmiş bir nəfər hakimliyə namizəd bir ədəd mülki hüquqa (mülki prosesə) aid, bir ədəd isə cinayət hüququna (cinayət prosesinə) aid inşa mövzusunu püşk vasitəsi ilə çıxarır və namizədlərə elan edilir.

Namizədlər kazusları həll edərkən kazusun faktiki hallarına uyğun düzgün maddi hüquq normasının müəyyən edilməsi və tətbiqi, mübahisənin həlli ilə bağlı zəruri olan prosessual hüquq normalarının tətbiqi, habelə tətbiq edilən normaların məzmununu kazusun halları baxımından izahını vermək bacarıqlarını nümayiş etdirməlidirlər

İmtahan müddətinin bitdiyi elan olunan kimi namizəd işi dayandırmalıdır. Nəzarətçilər namizədlərə bildirirlər ki, onlar oturduqları sektorlara uyğun Hakimlərin Seçki Komitəsi üzvünün yanına yaxınlaşmalı və inşanı təhvil verməlidirlər. İmtahanın sonu üçün elan edilmiş vaxtı gözləmədən imtahanı tərk etmək istəyən namizəd yuxarıda qeyd olunduğu qaydada işi təhvil verir və nəzarətçilərdən birinin müşaiyəti ilə zalı tərk edir. O, bir daha zala qayıda bilməz.

İmtahanın müddəti 4 (dörd) saatdır. İmtahan zamanı fasilə verilmir.

Cavabların yoxlanması ikiqat yoxlama vasitəsi ilə, Hakimlərin Seçki Komitəsinin üzvləri və dəvət olunmuş mütəxəssislər tərəfindən yoxlanılır

İmtahanın nəticələri namizədlərin yalnız şəxsi eyniləşdirmə kodu göstərilməklə mediada və Məhkəmə-Hüquq Şurasının rəsmi internet səhifəsində dərc edilir.

### Yazılı imtahanda inşa mövzularının ifadə edilməsinə dair izahatlar və inşaların qiymətləndirilməsi zamanı diqqət yetiriləcək məqamlar

**1. Cinayət sahəsi üzrə:**

- İnşa mövzusunda (kazusda) təsvir olunan cinayət əməlinin tərkib əlamətlərinin (obyekt, obyektiv cəhət, subyekt, subyektiv cəhət) müəyyən edilməsi və ümumi xarakteristikası (Cinayət Məcəlləsinin 3, 19 və 20-ci maddələri); Müvafiq prosessual sənəddə öz əksini tapan və cinayəthüquqi nəticələrə səbəb olan əmələ verilən cinayət hüquqi qiyməti; Tövsif edilən əməlin Cinayət Məcəlləsinin Xüsusi hissəsində yerləşməsi və ümumi xarakteristikası, yəni bu cinayəti səciyyələndirən obyektiv və subyektiv əlamətlər, cinayətin əsas tərkibi, cinayəti ağırlaşdıran tövsifedici əlamətlər;

- Əməlin bilavasitə hüquqi dəyərləndirilməsi (əməlin tövsifi); Törədilən konkret cinayət əməlinin cəhətləri ilə cinayət hüquq normasının müvafiq maddəsinin dispozisiyasında nəzərdə tutulan tərkib əlamətləri arasında uyğunluğun müəyyən edilməsi, yekun nəticəyə gəlməklə törədilən əmələ şamil edilməli olan CM-in konkret normasının təyin edilməsi və bu məsələ üzrə gəlinən qənaətin əsaslandırılması, digər oxşar cinayətlərdən fərqləndirilməsinin aparılması;

- Konkret kazus üzrə hər bir iştirakçının əməlinin hüquqi dəyərləndirilməsi; İştirakçılığın növünün müəyyən edilməsi, birgə icraçılığın növlərinin müəyyən edilməsi və ümumi xarakteristikası; Zəruri müdafiə, son zərurət, cinayət törətmiş şəxsin tutulması hallarının hüquqi xarakteristikası və kazusda qeyd edilən hallara uyğun hüquqi qiymət verilməsi; Başa çatmayan cinayətlərin müəyyən edilməsi; Cəzanı ağırlaşdıran və yüngülləşdirən halların müəyyən edilməsi, CM-in 62 və 70-ci maddələrinin tətbiqi şərtləri; Tövsifedici əlamətlərin təhlili və xüsusiyyətləri;

- Törədilmiş cinayət üzrə cinayət təqibinin növü, cinayət işinin başlanması, istintaq aidiyyəti, ibtidai istintaqın aparıldığı yer, ibtidai istintaq müddəti, ittiham aktının tərtib edilməsi və cinayət işinin məhkəməyə göndərilməsi kimi məsələlərin cinayətlərin təsnifatına dair CM-in 15-ci maddəsi nəzərə alınmaqla Cinayət-Prosessual Məcəlləsinin tələbləri (XXV fəsli (xüsusilə 209-cu maddə), 37, 215, 216, 217, 218, 284-292-cı maddələri) əsasında təhlili;

- Prosessual məcburiyyət, o cümlədən şübhəli şəxs qismində tutulma, həbs qətimkan tədbirinin tətbiqi məsələlərinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələbləri əsasında təhlili (CPM-147,148, 154-159-cu maddələri, LII fəsli); Məhkəmə nəzarətinin həyata keçirilməsi üzrə normaların tətbiqi;

- Törədilmiş cinayət üzrə məhkəmə aidiyyəti məsələsinin (CM-in 15.5-ci maddəsi və CPMin 69.2, 69.3 və 74.1-ci maddələri əsasında), eləcə də birinci instansiya məhkəməsində aparılan məhkəmə icraatında həll edilən digər məsələlərin CPM-in müddəaları əsasında zəruri həcmdə təhlil edilməsi;

- Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin Plenumunun və Avropa Məhkəməsinin qərarlarına istinad edilməsi

**2. Mülki sahə üzrə:**

- İnşa mövzusunda (kazusda) təsvir olunan faktiki hallardan çıxış edərək tələbin qanuni əsasının tapılması, onun müqavilədən yoxsa qanundan irəli gələn tələb olmasının aydınlaşdırılması (Mülki Məcəllənin 14, 385 və 386-cı maddələri);

- Müqavilədən yaranan tələblər (müqavilənin icrası ilə bağlı əsas tələblər, icra edilməmə və ya lazımi qaydada icra edilməmə ilə bağlı tələblər) üzrə tərəflərin Mülki Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş hansı müqavilə münasibətində olmasının müəyyən edilməsi, müqavilənin bağlanması (oferta, aksept, təmsilçilik-Mülki Məcəllənin 405, 408-410, 359-366-cı maddələri), həmçinin müqavilənin etibarlılığı ilə bağlı şərtlərə (fəaliyyət qabiliyyəti, müqavilənin

forması, məzmunu, iradə ifadəsi ilə bağlı tələblər: Mülki Məcəllənin 28-30, 342-245, 329-336, 337-341-ci maddələri) uyğunluğu, tələbin qanuni əsasını təşkil edən qanun normasının dispozisiya şərtlərinin müəyyən edilməsi, həmin şərtlərin konkret kazus üzrə mövcud olubolmamasının yoxlanılması (hüquqi tövsif); Müqaviləyə və öhdəliyə xitam verilməsi əsaslarının mövcudluğu (Mülki Məcəllənin 421-422, 528-531-ci maddələri), öhdəliyin icrasını tələb etmək hüququnu aradan qaldıran halların (iddia müddətinin keçməsi, öhdəliyin icrasından imtina hüququ (Mülki Məcəllənin 372-284, 441-ci maddələri) mövcudluğunun şərhi;

- Qanundan irəli gələn tələblər üzrə - tələbin özgə işlərini tapşırıqsız aparma, əsassız varlanma, mülki hüquq pozuntusu (delikt), yaxud əşya hüququndan və ya vərəsəlik münasibətlərindən yaranmasının müəyyən edilməsi, qeyd olunan ayrı-ayrı əsaslar üzrə tələbin 16 qanuni əsasını təşkil edən qanun normasının dispozisiya şərtlərinin müəyyən edilməsi, həmin şərtlərin konkret kazus üzrə mövcud olub-olmamasının yoxlanılması (hüquqi tövsif);

- Kazusun həlli üçün zəruri olan maddi hüquq normalarını müəyyən etməklə ətraflı hüquqi dəyərləndirmənin aparılması və gəlinən nəticənin əsaslandırılması;

- Kazusun Mülki-Prossesual Məcəllənin tələbləri baxımından təhlili (müvafiq iddianın məhkəmə və ərazi aidiyyəti, məhkəmə icraatının növü, baxılma qaydası, sübutlar və sübutetmə məsələləri, iddia üzrə qəbul edilməli olan məhkəmə aktının növü və konkret kazusdan irəli gələn digər prosessual məsələlər);

- Maddi hüquq normalarına, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin Plenumunun və Avropa Məhkəməsinin qərarlarına, məhkəmə təcrübəsinə, o cümlədən Ali Məhkəmənin Kollegiyalarının məhkəmə təcrübəsinin vahidliyini təmin edən qərardadlarına istinad edilməsi;

**NAMİZƏDLƏRİN DİQQƏTİNƏ!**

**Hər bir sahə üzrə verilmiş mövzuya dair yazılı cavablar qrammatik qaydalara əməl edilməklə səliqəli, aydın və oxunaqlı olmalı, fikirlər məntiqi ardıcıllıqla ifadə edilməlidir. Cavablarda qeyri-dəqiq ifadələrə, rəsmi sənədlərdə qəbul olunmayan sözlərə, kazusda təsvir olunan işə aidiyyəti olmayan halların və qanunvericilik normalarının sadalanmasına yol verilməməlidir.**

## Hakimliyə namizədlərlə müsahibə

Müsahibə açıq, hər bir namizədlə fərdi qaydada söhbət formasında və təqribən 1 saat aparılır. Hər namizədə 10 sual verilir. Eyni gündə müsahibədə iştirak edən namizədlərə eyni suallar verilir. İmtahanda iştirak edən Hakimlərin Seçki Komitəsinin üzvü namizədə ən çoxu 2 sualla müraciət edə bilər.

Müsahibə zamanı namizədə onun hüquq sahəsində nəzəri və praktiki biliklərini, habelə məntiqi nəticələr çıxarmaq qabiliyyətini müəyyən edən suallar verilir, biliklərinin tətbiqi, özünü təqdimetmə bacarıqları, ümumi dünyagörüşü, təmkinliliyi, fikir və rəyini ifadə etmək, analitik düşünmək qabiliyyəti yoxlanılır.

Namizədlərin cavabları hər bir sual üzrə 10 ballıq şkala ilə qiymətləndirilir və suallar üzrə hər bir Komitə üzvünün sayına bölünməklə verdiyi balların ortalaması ilə müəyyən edilir. Hər bir namizəd ən çoxu 100 bal toplaya bilər. 60 və ya daha çox bal toplamış namizəd müsahibədən keçmiş hesab olunur.

## İmtahanlarda istifadə olunan test nümunələri

**Açıq tipli testlər:**

**Cinayət Məcəlləsinə əsasən aşağıdakı şəxslərdən hansılara ictimai işlər cəzası tətbiq oluna bilər?**

1. yetkinlik yaşına çatmamış şəxslərə
2. üç yaşınadək uşağı təkbaşına böyüdən kişilərə
3. hərbi qulluqçulara
4. pensiya yaşına çatmış qadın və kişilərə
5. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə

**İnzibati Prosessual Məcəlləyə əsasən aşağıdakı iddia növlərindən hansına dair qarşılıqlı iddia qaldırıla *bilməz*?**

1. mübahisələndirmə haqqında
2. müəyyən hərəkətləri etməkdən çəkinmə haqqında
3. qanunauyğunluq haqqında
4. müəyyən etmə və ya tanınma haqqında
5. məcburetmə haqqında

**Qapalı testlər:**

**Azərbaycan Respublikasının Konstitusiyasına əsasən torpaq üzərində mülkiyyət hüququ hansı halda məhdudlaşdırıla bilər?**

**A)** Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə
**B)** Torpaq üzərində mülkiyyət hüququ heç bir halda məhdudlaşdırıla bilməz
**C)** İctimai ehtiyaclar üçün yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə
**D)** Yalnız bələdiyyə və dövlət torpaqlarına münasibətdə məhdudlaşdırıla bilər

**Mülki Məcəlləyə əsasən "idarə":**
**A)** Hüquqi şəxsin idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaların həyata keçirilməsi üçün yaratdığı təşkilatdır.
**B)** Hüquqi şəxsin daimi fəaliyyət göstərən orqanının, siyasi partiyada rəhbər orqanların qərargahının yerləşdiyi yerdir.
**C)** Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsidir.
**D)** Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsidir.

**Mülki Prosessual Məcəlləyə əsasən etiraz etmə və ya özü-özünə etiraz etmə məsələləri barədə məhkəmə qərardadından hansı müddətdə şikayət verilə bilər?**
**A)** Bu qərardadlardan şikayət verilməsinə yol verilmir
**B)** Qərardad tərəfə təqdim edildikdən və ya tərəf onu aldıqdan sonra 10 gün müddətində
**C)** Qərardad elan olunduqdan sonra 10 gün müddətində
**D)** Qərardad çıxarıldıqdan sonra 3 gün müddətində

**Cinayət Məcəlləsinə əsasən ictimai işlər cəzasına məhkum olunmuş şəxs həmin işləri yerinə yetirməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə ictimai işlərin çəkilməmiş hissəsini əvəz edə bilər:**
1. azadlığın məhdudlaşdırılması növündə cəza ilə
2. intizam xarakterli hərbi hissədə saxlama cəzası ilə
3. müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə
4. islah işləri növündə cəza ilə
**A)** 1, 3
**B)** 2, 4
**C)** 1, 2
**D)** 3, 4

**Cinayət Prosessual Məcəlləyə əsasən zərər çəkmiş şəxsin yaxın qohumu olan hüquqi varisi təqsirləndirilən şəxsin hüquqi varisindən fərqli olaraq aşağıdakı hüquqa malikdir:**
**A)** təmsil etdiyi şəxsin verdiyi şikayətdən imtina etmək
**B)** təmsil etdiyi şəxsin adından ifadə vermək
**C)** vəsatətlər vermək
**D)** etirazlar etmək

**İnzibati Xətalar Məcəlləsinə əsasən aşağıda qeyd edilənlərdən hansılar barəsində gətirilmə tətbiq edilə *bilməz*?**
**A)** 16 yaşına çatmayan şəxslər, hamilə qadınlar
**B)** Hüquqi şəxsin nümayəndəsi və direktoru
**C)** 60 yaşına çatmış qadınlar və 65 yaşına çatmış kişilər
**D)** Şahidlər

**İnzibati Prosessual Məcəlləyə əsasən kassasiya icraatı qaydasında şifahi məhkəmə baxışı başa çatdıqdan sonra şikayətin geri götürülməsinə:**
**A)** cavabdehin razılığı ilə yol verilir
**B)** iddiaçının razılığı ilə yol verilir
**C)** məhkəmənin təşəbbüsü ilə yol verilir
**D)** heç bir halda yol verilmir

**Əmək Məcəlləsinə əsasən intizam tənbehi verilən gündən hansı müddətə qüvvədə olur?**
**A)** altı ay müddətində
**B)** bir il müddətində
**C)** üç ay müddətində
**D)** bir ay müddətində

**"Məhkəmə-Hüquq Şurası" haqqında Azərbaycan Respublikasının Qanununa əsasən Hakimlərin Seçki Komitəsinin qərarından şikayət verilir:**
**A)** 10 gün müddətində Məhkəmə-Hüquq Şurasına
**B)** 1 ay müddətində Ali Məhkəmənin Plenumuna
**C)** 10 gün müddətində Ali Məhkəmənin Plenumuna
**D)** 1 ay müddətində Məhkəmə-Hüquq Şurasına

**"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən apellyasiya məhkəmələrinin ərazi yurisdiksiyası hansı qaydada müəyyən edilir?**
**A)** Məhkəmə-Hüquq Şurası tərəfindən
**B)** Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti tərəfindən
**C)** Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən
**D)** Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən

**Məntiq testləri:**

**1 sual.**

Azərbaycan Qran-prisi adı altında ilk dəfə 2017-ci ildə keçirilən yarışın ildönümünə həsr olunmuş tədbirdə əllərində yarışlarda istifadə olunan bayraqları tutan 5 gənc – Günay, Günel, Elmir, Kamil və Samir sıraya düzülürlər. Gənclərin əllərindəki bayraqların soldan sağa sıralanması belədir:

1. Daha sürətli avtomobilin yaxınlaşmasını bildirən mavi bayraq;
2. Təhlükənin sonunu və restartı bildirən yaşıl bayraq;
3. Pilotun yarışdan məhrum edildiyini bildirən qara bayraq;
4. Yarışın dayandırıldığını bildirən qırmızı bayraq;
5. Lokal və ya tam xəbərdarlığı bildirən sarı bayraq.

Elmirin əlindəki nə pilotun yarışdan məhrum edildiyini bildirən, nə də sarı bayraqdır. Samiri Kamildən ən çoxu 1 bayraq ayırır. Sırada Günay 2 oğlanın arasında dayanıb. Kamilin əlindəki bayraq daha sürətli maşının yaxınlaşmasını bildirir.

Kim əlində lokal və ya tam xəbərdarlığı bildirən bayrağı tutub?

A)) Günel B) Günay C) Samir D) Elmir E) Kamil

**2 sual**
Kompüter mağazasında gün ərzində fərqli modellərdən (“Acer”, “HP”, “Dell”, “Toshiba”) olan, 2, 4, 8, 16 GB operativ yaddaşa malik 4 kompüter satıldı. Sənan, Babək, Aydın və Aytənin aldığı bu kompüterlərin mağazada qiymətləri 400, 560, 600 və 680 manat idi. Məlumdur ki:

- ən yüksək qiymətə satılan kompüterin – Aydının aldığı “Dell”in operativ yaddaşı 8 GB deyil;
- modelinin adı ilə alıcısının adı eyni hərflə başlayan kompüterin operativ yaddaşı ən az olmasa da, “Dell”in və 600 manata Sənanın aldığı kompüterin operativ yaddaşından azdır;
- Babəkin aldığı “HP”nin qiyməti gün ərzində satılan kompüterlərin orta qiymətinə bərabərdir.

“Acer”, “HP”, “Dell”, “Toshiba” kompüterlərini qiymətlərinin artması ardıcıllığı ilə sıralayın və onların adlarını uyğun kodlarla əvəz edin.

| **Kompüter** | “Acer” | “HP” | “Dell” | “Toshiba” |
|---|---|---|---|---|
| **Kod** | 1 | 2 | 3 | 4 |

A)) 1, 2, 4, 3 B) 1, 4, 2, 3 C) 4, 2, 3, 1 D) 4, 1, 2, 3 E) 2, 1, 3, 4

**3 sual**
*1: - Çölə çıxıb bir az gəzək?*
*2: - Niyə? Nə oldu ki?*
*1: - ..........*
*2: - Elədirsə gedək, açıq havada gəzmək sənin üçün yaxşı olar.*

Bu dialoqda boş buraxılan yerdə söhbətin məğzinə görə aşağıdakılardan hansı işlənə ***bilməz***?
A)) Həm işim qurtardı, həm də acmışam.
B) Ürəyim sıxıldı, özümü yaxşı hiss etmirəm.
C) Hesab işləri aparmaqdan yoruldum.
D) Bağlı yerdə havasızlıqdan başım ağrıdı.
E) Oturmaqdan ayaqlarım tutuldu.

**4 sual**
Hansı cavab variantındakı hərflərin pozulmuş sırasını bərpa etdikdə birinci sözün sonu, ikinci sözün əvvəli alınır?

əla (...) t

A)) idəhd B) tıl C) iqsəz D) ahəqəb E) atis

**5 sual.**
Hər bir sözün şifrlənməsində iki fiqurdan istifadə edilib. Fiqurların şifrlədiyi hərflərin ardıcıllığını taparaq “?” işarəsinin yerinə uyğun gələn variantı müəyyən edin.



A)) ⊞⊡ B) ⊘⊠ C) ⊘⊟ D) ⊟⊕ E) ⊠⊡

**6 sual**

2-si həmişə doğru, 2-si isə həmişə yalan danışan M, N, K və G adlı 4 nəfərin söylədiklərinin köməyi ilə doğru danışanları müəyyən edin.

M-in söylədiyi: K yalan danışır.
N-in söylədiyi: M yalan danışır.
K-nın söylədiyi: G yalan danışır.
G-nin-in söylədiyi: Əgər M, N və K-dan ikisi yalan danışandırsa, mən yalan danışa bilmərəm.

A) M və G
B) N və K
C) M və N
D) M və K
E) N və G

**Testin həlli:** M və G.

**G**-nin söylədiyinə əsasən onun **doğru** danışdığı müəyyənləşir. Doğrudan da M, N və K-dan ikisi yalan danışandırsa, G yalan danışa bilməz, çünki şərtə görə yalnız 2 nəfər həmişə yalan danışır.
**G**-nin **doğru** danışdığına əsasən **K**-nın **yalan** danışdığı üzə çıxır (K-nın söylədiyi: G yalan danışır).
**K yalan** danışdığından **M**-in **doğru** danışdığı məlum olur (M-in söylədiyi: K yalan danışır).
**M doğru** danışdığından **N**-in **yalan** danışdığı aşkarlanır (N-in söylədiyi: M yalan danışır).
Beləliklə, **M** və **G doğru**, **K** və **N yalan** danışır.

**7 sual**

Mühəndis hər gün saat $8^{00}$-da vağzalda olur. Zavoddan çıxan xidməti avtomobil saat $8^{00}$-da vağzala çatır və mühəndisi $8^{30}$-da zavoda gətirib çatdırır. Bir dəfə mühəndis vağzala saat $7^{00}$-da çatdı və avtomobili gözləməyərək piyada zavoda tərəf getdi. Yolda onu qarşılamağa gələn avtomobilə oturdu və zavoda həmişəkindən 20 dəqiqə tez çatdı. (Avtomobil zavoddan həmişə eyni vaxtda çıxır, həmişə eyni yolla və eyni orta sürətlə hərəkət edir).
Avtomobilin sürəti mühəndisin sürətindən neçə dəfə çoxdur?

A) 9 B) 7 C)) 5 D) 6 E) 4

Testin həlli: 5.

Xidməti avtomobilin saat $8^{00}$-da vağzaldan götürdüyü mühəndisi $8^{30}$-da zavoda gətirib çatdırdığını bilərək həmin avtomobilinin zavoddan $7^{30}$-da çıxdığını müəyyən etmək olur. Bu zaman onun sürəti $V_{avtomobil}$=L/(1/2 saat)-dır. Həmin avtomobilin zavoddan çıxaraq vağzaldan həmişəkinə nisbətən tez yola düşən mühəndislə görüşüb geri qayıtmağına qədər 40 dəqiqə ($8^{10}$-$7^{30}$) vaxt keçir (yəni onların görüşü $7^{50}$ –baş tutub). Bu vaxt ərzində o, S=(2/3)xL/(1/2)= (4/3)xL qədər yol gedər. Bu yolun yarısı ((2/3)xL) mühəndislə görüşənədək, yarısı isə görüşəndən sonra qət edilib. Deməli, mühəndis yolun 1/3 hissəsinə 50 dəqiqə ($7^{50}$-$7^{00}$), avtomobil isə yolun 2/3 hissəsinə 20 dəqiqə vaxt sərf edib. Avtomobilin sürəti

(Lx2/3)/1/3)=Lx2, mühəndisin sürəti isə (Lx1/3)/5/6)=Lx2/5 olur. Avtomobilin sürəti mühəndisin sürətindən (Lx2)/( Lx2/5)=5 dəfə çoxdur.

**8 sual**




Şəkildə hər biri bağlar vasitəsilə bir neçə kvadrat ilə əlaqələnən 12 kvadratdan ibarət fiqur verilmişdir. Bu fiqur deformasiyaya uğrayaraq aşağıdakı şəklə düşmüşdür (kvadratlar bir-birinə nəzərən yerini dəyişmiş, bağlar qırılmamışdır).




*X* və *Y* ilə hansı kvadratların işarələndiyini taparaq uyğunluğu müəyyən edin.

1. X
2. Y

a. S
b. Ə
c. G

d. L
e. M

A) 1 — b; 2 — d B) 1 — b; 2 — a C)) 1 — b; 2 — e D) 1 — c; 2 — d E) 1 — c; 2 — a

Testin həlli: 1 — b; 2 — d



**9 sual**

Şəkildəki boz xanalardan başlayaraq istənilən istiqamətdə — yuxarı, aşağı, sağa, sola xanadan-xanaya keçərək ardıcıl olaraq qırmızı, qara, narıncı və boz xanalardan ibarət mümkün 4 xanalı komplektlərin sayını müəyyən edin



A) 7 B) 6 C) 5 D) 4 E) 8

Testin həlli: 7. Qırmızı, qara, narıncı və boz xanalardan ibarət mümkün 4 xanalı komplektlərin sayı 7-dir.

**10 sual**

“?” işarələrinin əvəzinə sağdakı hər bir ifadə ilə bağlılığı olan sözləri seçin.







A) I — uzanmaq, II — şam
B) I — oyanmaq, II — şam
C) I — uzanmaq, II — meşə
D) I — böyümək, II — gecə
E) I — yorulmaq, II — meşə

Testin həlli: I — uzanmaq, II — şam
***Uzanmaq*** həm yatmaq, həm davam etmək, həm də boy atmaqdır.
***Şam*** həm ağac, həm axşam, həm də işıqverəndir.

## Yazılı imtahanın sual nümunələri

### Cinayət hüquq sahəsi üzrə:

Əli Adilə 6 ay müddətə qaytarmaq şərti ilə 10000 manat borc verir. Əli Adilə bildirir ki, 10000 manatı faizlə götürmüşdür, əgər 6 ayı keçsə o, pulu götürdüyü şəxsə əlavə 3000 manat ödəməlidir. 6 ay keçsə də, Adil pulu qaytarmır, müxtəlif bəhanələrlə yayınır. Əli Adillə bir neçə dəfə görüşsə də, nəticəsi olmur. Əli bu barədə dostu Qasımla danışır. Qasım bu məsələni həll etmək üçün kriminal fəaliyyətlə məşğul olan Həsənlə görüşür və məsələni danışır. Qasım Həsənə məsələni həll etdikdə 1500 manat hörmət edəcəyini bildirir. Həsən bununla razılaşır və Adili çay evinə çağırmalarını təklif edir. Adili çay evinə çağırırlar və orada Adildən 1 gün müddətinə 13000 manat pulu qaytarmağı tələb edirlər, əks halda onun və ailəsi üçün problem yaradacaqlarını bildirirlər. Çay evindən çıxdıqdan sonra Adil uzaqlaşmaq istədikdə onu Həsənin idarə etdiyi avtomobilə oturmasını tələb edirlər. Adil narazılıq etsə də, Həsən onun qolundan tutaraq maşına əyləşdirir. Maşın hərəkətə başlayan kimi Adil pulu qaytaracağını söz verir və yüksək təzyiqinin olmasını, özünü pis hiss etməsini bildirir. Onlar avtomobili saxlayır və metro stansiyasında Adili düşürürlər. Səhəri gün Adil 10000 manat pulu Əliyə qaytarır və ondan qalan pul üçün vaxt istəyir. Əli bununla razılaşmır, qalan pulun əvəzində qardaşı oğlunu rəhbərlik etdiyi şirkətdə işlə təmin edilməsini tələb edir. Adil bu barədə polisə məlumat verir.

Faktlarla bağlı cinayət işi başlanmış, Əli, Qasım və Həsən şübhəli şəxs qismində tutulmuş, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror onların barəsində dörd ay müddətinə ev dustaqlığı qətimkan tədbirinin seçilməsi barədə vəsatət vermiş, məhkəmə vəsatəti təmin etməmiş, hər iki şəxsin barəsində girov qismində qətimkan tədbiri seçmişdir.

Kazus üzrə halların cinayət və cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq təhlilini verin.

### Mülki hüquq sahəsi üzrə:

İddiaçı Xumar cavabdeh Əzizəyə qarşı 2024-cü ilin iyul ayında iddia ilə məhkəməyə müraciət edərək, cavabdehdən 15.000 manat borcun tutulmasını xahiş etmişdir.

İddiaçı tələbini onunla əsaslandırmışdır ki, cavabdeh ondan 2021-ci ilin may ayında 15.000 manat borc istəmiş, nəğd pul vəsaiti olmadığından Əzizə ilə lombarda gedib bütün qızıl-zinət əşyalarını girov qoyaraq 15.000 manat kredit götürüb ona vermişdir. Əzizə lombarddan götürülmüş krediti ödəməyi öhdəsinə götürsə də, heç bir ödəniş etməmiş, lombard Xumara qızıl-zinət əşyalarını sataraq borcun ödənilməsinə yönəldiləcəyi barədə xəbərdarlıq etdiyindən məcbur olaraq 2021-ci ilin sentyabr ayında lombardın borcunu ödəyərək qızıllarını geri almışdır.

Cavabdeh Əzizə məhkəmədə izahat verərək, iddiaçıdan 15.000 manat borc aldığını etiraf etmiş, lakin həmin borcu qaytardığını bildirərək iddianın rədd edilməsini xahiş etmişdir.

İş məhkəmənin icraatında olarkən Əzizə 01.09.2024-cü ildə ürəktutmasından vəfat etmiş və onun yeganə vərəsəsi Nərgiz 05.02.2025-ci il tarixdə məhkəmə tərəfindən cavabdeh kimi işə cəlb edilmişdir. Nərgiz məhkəmə iclasında iddianı qəbul etməyərək, anasından qalan miras əmlaka dair qanun üzrə vərəsəlik şəhadətnaməsi almadığını və onun borcları üçün məsuliyyət daşımadığını bildirmişdir.

İddiaçı Nərgizin izahatına etiraz edərək, onun anasına məxsus mənzildə yaşadığını və mirası faktiki qəbul etdiyini bildirmişdir.

Kazus üzrə halların mülki və mülki prossesual qanunvericiliyin tələblərinə uyğun olaraq təhlilini verin.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**